

**■ Meyxoş Abdullah**

# "Divara yazılmış azadlıq sözü"

Vasif Əlihüseynlini jurnalist kimi tanımışam, sonra mənə "Divara yazılmış azadlıq sözü" kitabını hədiyyə etdi.

Vasif Əlihüseynlinin şeirlərini isə bir gecədə oxuyub qurtardım. Əvvəlcə mənə elə gəldi ki. mən şeir yox, hardasa bir nəsr əsəri oxudum. Onun qələmə aldığı şeirlərin mövzusu sanki qəliblənməmiş, çərçivədən bir az uzaq göründü mənə. Çünki Vasif düşündüklərini və duyduqlarını ağ kağıza, sanki heç vaxt heç yerdə çap etdirməyəcək formada, arxiv material kimi köçürtmüşdü. Məlumdur ki, hər birimiz qarşımıza kağız qələm qoyarkən birinci növbədə yazacağımız əsərin çapını düşünürük. Təbii ki, Vasif də bu xislətdən xali deyil, lakin onun tam sərbəstliyi, seçdiyi və şeirə çevirdiyi mövzuların həyatiliyi, canlılığı mənim xoşuma gəldi. O bir şeirində deyir:

*Bilirdim gedəcəksən*
*bu şeiri də öncədən yazmışdım.*
*lap elə babamın ölümqabağı*
*biçdirdiyi kəfən kimi.*

Əslində, bu şeir parçasında "başsındırılası" elə böyük bir məna axtarışına çıxmaq da lazım deyil, amma şeirdəki həyati reallıq diqqəti cəlb edir.

Vasifin şeirlərində səmimilik, bir doğmalıq var. Hər hansı bir şeirini oxuyursan oxu, orada insanın yaşam tərzi, gündəlik yaşadığımız adi həyat mənzərəsi gözündə canlanacaq. O duyğularını, fikirlərini tam sərbəst ifadə etmək bacarığına malikdir. Şeirləri yadda qalan, dili doğma və sadədir.

*Kənd elə bizim*
*qoyub getdiyimiz kənddi.*
*bircə,*
*ölən adamların sayından başqa*

Vasif Əlihüseynli gənc olmasına baxmayaraq, ağrılar yaşamış adamdır. Uşaq yaşlarından zəhmətə qatlaşması, həyatın onun qarşısına çıxartdığı özünün də yazdığı kimi arzusunda olmadığı, yatıb yuxusuna da girməyən problemlər, canından artıq sevdiyi, ailədə atasından da çox güvəndiyi və dostluq etdiyi anasının vaxtsız ölümü, elə bu yaşında yaxınlarının da yükünü, dərd-sərini çəkməsi ona yaşamağın və ayaqda qalmağın həyat fəlsəfəsini əyani olaraq başa saldı.

Vasif sevgi şeirlərində də bir qədər fərqli düşüncə yürütməyə meyillidir. "Sənsiz ölərəm", "sənsiz yaşamaq



mənə əzabdır, "başımın tacısan", "mələyim, ömrüm-günüm" kimi çox deyilən ifadələrdən, demək olar ki istifadə etmir. O sevdiyi qıza öz yaşayışını, təhnalığın insan həyatında buraxdığı izləri, elə öz yaşadığı tərzdə, sadə formada başa salmağa çalışır.

*Nə deyim bəxtimə yazılan eşqə?*
*Bu gecə adına şeir deyirəm.*
*Qara gözlərinə vurulduğumdan*
*Elə əynimə də qara geyirəm.*

Vasif Əlihüseyninin yaradıcılığı haqqında bitmiş bir fikir demək, hələ çox tezdir. O, gəncdir, hələ axtarışdadır, hələ qarşıda tapıntıları uğurları çox olacaq, əlbəətdə ki, öz üzərində çalışsa. Təbii ki, hamımızın yaradıcılığında olduğu kimi Vasifin də uğurlu, uğursuz əsərləri çoxdur. Mən bu yazımda ilk tanışlıq olaraq müəyyən müsbət qeydlərimi və ümumi formada Vasif yaradıcılığı haqqında qısa fikirlərimi söylədim. Sonda Vasif Əlihüseynliyə yazımın başlığına qoyduğum ad kimi özü olmağı, yaradıcılıqda öz cığırı olmağı arzulayıram. Tapdanmış cığırla gedənin izi qalmır...



Kaspi.-2016.-17-19 dekabr.-S.19.